**UOT 371**

***Mənzilə Ağarəhim qızı Rəhimova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialının baş müəllimi*
*https//orcid.orq.0000-0001-8251-2015*

# SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR TƏRBİYƏ İŞLƏRİNİN MAHİYYƏTİ, MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ, ONLARIN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Манзила Агарагим гызы Рагимова***
*диссертант по программе доктора философии*
*старший преподаватель Джалилабадского филиала Азербайджанского Государственного Педагогического Университета*

# СУЩНОСТЬ, ЦЕЛИ И ЗАДАЧИ ВНЕКЛАССНЫХ И ВНЕШКОЛЬНЫХ ВОСПИТАТЕЛЬНЫХ РАБОТ, ИХ ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ

***Manzila Agarahim Rahimova***
*doctorial student in the program of doctor of philosophy*
*senior lecturer of the Jalilabad branch of the Azerbaijan State Pedagogical University,*

# THE NATURE, PURPOSE AND OBJECTIVES OF EXTRACURRICULAR AND EXTRACURRICULAR EDUCATIONAL ACTIVITIES, THEIR CHARACTERISTICS

**Xülasə.** Sinifdənxaric və məktəbdənkənar tədbirlər birbaşa mənəvi-əxlaqi tərbiyə işinin yaxşılaşdırılmasına, təkmilləşdirilməsinə istiqamətlənmişdir ki, bu da təhsilimizin daha da inkişaf etdirilməsi, daha da sürətlə təkmilləşdirilməsi, şagirdlərin məktəbdə davamlı olaraq qazandıqları elmləri getdikcə daha çox tətbiq etməyi və daha çox əməli işlər, praktik işlər görməyi tələb edir. Pedaqoji ədəbiyyatda sinifdənxaric iş, dərsdənkənar iş və məktəbdənkənar iş anlayışlarına tez-tez rast gəlmək olur. Bəzən onları bir, eyni mahiyyətdə qəbul edir, onları eyni anlayış kimi qəbul edirlər. Amma bunu da açıqlaya bilərik ki, bu məfhumlar arasında həm yaxınlıq, həm də fərqli cəhətlər – mənaca və mahiyyətcə, özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır ki, onlar haqqında çox danışmaq olar.
***Açar sözlər:*** *tədris, təlim, şagird, mənəvi*

**Резюме.** Внеклассные и внешкольные мероприятия непосредственно направлены на совершенствование работы нравственного воспитания, что требует дальнейшего развития нашего образования, быстрого применения наук, полученных учащимися в школе, и большей практической работы. В педагогической литературе часто встречаются понятия внеурочной, внеклассной и внешкольной деятельности. Иногда они воспринимаются как одно и то же понятие. Однако можно также пояснить, что между этими понятиями есть как сходства, так и различия – смысл и сущность, понятие имеет свои особенности, о которых можно говорить очень много.
***Ключевые слова****: преподавание, обучение, ученик, нравственный*

**Summary.** Extracurricular and out-of-school activities are directly aimed at improving the work of moral education, which requires the further development of our education, the rapid application of the sciences acquired by students in school and more practical work. is. In the pedagogical literature, the concepts of extracurricular activities, extracurricular activities and extracurricular activities are often encountered. Sometimes they are perceived as one and the same, they are perceived as the same concept. However, we can also explain that between these concepts there are both similarities and differences – meaning and essence, the concept has its own characteristics, which can be talked about a lot.
***Key words:*** *teaching, training, student, spiritual*

Müasir şəraitdə sinifdənxaric tədbirlərin təkmilləşdirilməsi istiqamətlərinin məzmununu, yeni forma və üsullarla müəyyənləşdirmək üçün əməyə hazırlıq, əqli, əxlaqi, fiziki, estetik, iqtisadi və ekoloji tərbiyə, habelə insan hüquqlarına hörmət əsasında hər bir məktəbli ilə bir neçə yönümdə iş aparılmalıdır. İlkin olaraq, şagirdləri tərbiyələndirici vasitələrin, bilavasitə dərsdə və dərsdənkənar vaxtlarda onların əməli fəaliyyətini vahid sistemdə birləşdirməyin daha təsirli yollarının aşkara çıxarılması hər bir müəllim və məktəb rəhbərlərinin diqqət mərkəzində olmalıdır.

Məlumdur ki, məktəblilərin milli ruhda tərbiyə olunmalarında sinifdənxaric və məktəbdənkənar tədbirlərdən istifadə etmək çox vacibdir. Şagirdlərlə aparılan dərsdənkənar tədbirlər onların hərtərəfli inkişafına kömək edir. Belə ki, adət-ənənələrimizə sadiqlik, milli kökə bağlılıq, inam tərbiyə etmək dərsdənkənar işlərin mahiyyətini təşkil edir.

Sinifdənxaric və məktəbdənkənar tədbirlərin oxşar cəhətləri bunlardır ki, hər ikisi tərbiyə, əxlaq, mənəviyyat, əxlaq işi aparır və bu tərbiyə işi ya dərsə qədər aparılır, ya da dərsdən sonrakı vaxtlarda (yəni təlim fəaliyyəti çərçivəsindən sonrakı vaxtda kənarda) həyata keçirilir. Hər ikisi məktəblilərlə aparılan ümumi tərbiyə işinin tərkib hissəsi kimi və ya onun davamı kimi qəbul edilə bilər ki, bunlar da dərsdən sonrakı müddətdə keçirilir.

Sinifdənxaric işlərin əhəmiyyəti haqqında ölkə başçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Təhsil haqqında 5 istiqamətli strategiya sərəncamında bir daha xüsusilə göstərilmişdir ki, *təhsilin keyfiyyətini daim yüksəltmək lazımdır və daim insan resurslarından müntəzəm olaraq, səmərəli, sistemli və ardıcıl olaraq istifadə etmək lazımdır(1).*

Ümumi şəkildə bunu da deyə bilərik ki, şagirdlərin sinifdənxaric və məktəbdənkənar tədbirlərə cəlb olunmasında qarşıda duran əsas vəzifələr aşağıdakı kimi göstərilə bilər.

1. Təhsil alanların tədris və tərbiyə prosesində qazandıqları biliklərin dərsdənkənar, boş dediyimiz asudə vaxtlarda, müxtəlif maraqlı tədbirlər vasitəsilə fənlərin arasında, ya da fəndaxili və ya fənnüstü əlaqələr zamanı uğurla həyata keçirmək olar.

2. Təhsil alanların gərgin zəhmətli dərs yüklərinin azaldılması məqsədi güdərək daha səmərəli və daha da maraqlı sərbəst, müstəqil və daha rahat şəkildə, bir qədər də əyləncəli, romantik, rahat olaraq qazanılan biliklərin dərinləşdirilməsi və onların praktikada tətbiq edilməsi.

3. Sinifdənxaric və məktəbdənkənar məşğələlər vasitəsilə bütün məktəblilərdə biliklərə dərin maraq və güclü məhəbbət hisslərinin yaradılması.

4. Sinifdənxaric məşğələlərdə şagirdlərin özünüinkişaf, özünütərbiyə, özünü təkmilləşdirmə və özünütəsdiq üçün hər cür əlverişli, rahat şərait və imkanların həyata keçirilməsi (4)

Belə ki, dediyimiz dərsdənkənar və ya sinifdənxaric işlərdən bəzən ayrı -ayrı fənlərin dərsdə geniş şəkildə öyrədilməsi mümkün olmadıqda, ya da problemli olan məsələlərin xüsusi olaraq həllində, müxtəlif təmayüllü və janrlı əsərlərin, ifaçılıq keyfiyyətlərinin öyrədilməsində, ya da onların inkişaf etdirilməsində, daha çox sinifdənxaric, dərsdənkənar oxularda, müxtəlifyönlü maraqlı tədbirlərdə istifadə edilir.

Məlumdur ki, davamlı olaraq qurulan məşğələlər təhsil alanların tərbiyə və təhsil səviyyəsinə, onların xüsusi olaraq elmi, bədii dünyagörüşünə qüvvətli və güclü təsir edir.

Dünya təcrübəsindən məlum olduğu kimi, XXI əsrdə həm cəmiyyətin, həm də onun hər bir üzvünün yaşaması və inkişafı üçün başlıca amil daim özünü inkişaf etdirən, təkmilləşdirən, yeni pedaqoji texnologiyalardan istifadə edən, çalışqan, yaradıcı şəxsiyyətdir.

Bu cəhətdən pedaqoji proses – o cümlədən sinifdənxaric və məktəbdənkənar tədbirlər yetişən gənc nəslimizdə bu keyfiyyətləri ardıcıl olaraq formalaşdırmalıdır.

Bu da, öz növbəsində, aşağıda göstərilən pedaqoji, mənəvi, əxlaqi və idraki keyfiyyətlərə əsaslanır ki, müəllim və tərbiyəçilər, təhsil işçiləri təhsil alanlarda həmin keyfiyyətləri formalaşdırmalı və daim inkişaf etdirməlidirlər:

– təhsil alanlarda məntiqi və tənqidi düşüncə tərzini, idrak bacarıqlarını inkişaf etdirmək;

– ətraf aləm hadisələrinə, müxtəlif fəaliyyət növlərinə yaradıcı və məntiqi təfəkkür yönümündən yanaşmaq;

– müstəqil qərarlar çıxarmaq, müstəqil fikirlər söyləmək, müstəqil fəaliyyət göstərmək bacarığını inkişaf etdirmək;

– qazanılmış bilikləri müstəqil olaraq tətbiq edə bilmək bacarığı və qabiliyyətləri formalaşdırmaq;

– təhsil alanları sinifdənxaric işlər prosesində daha çox praktik fəaliyyətə, əməli işlərə istiqamətləndirmək;

– təhsil alanları daim özünü inkişafa və özünü təkmilləşdirməyə, həyatda fəal mövqe tutmağa istiqamətləndirmək.

Bu istiqamətdə aparılan işlər şagirdlərdə elmə, biliyə həvəs, zehni fəaliyyətə stimul və böyük həvəs yaratmış olur. (4)

Sinifdənxaric və məktəbdənkənar tədbirlərin bir sıra iş formalarının – söhbət, müzakirə, oyunlar, görüşlər, gecələr, ekskursiyalar, gəzintilər, kollektiv tamaşalara, kinolara baxışlar və başqa tədbirlərin həyata keçirilməsi vaxtı, şagirdlərin fərdi-psixoloji xüsusiyyətləri mütləq nəzərə alınmaqla, onların tərbiyəlilik səviyyəsinin inkişafına diqqət yetirilməli və bunun hər zaman davamlı olaraq yüksəldilməsinə səy edilməlidir.

Deyə bilərik ki, təhsil alanlar daha çox elmə, biliyə meylli və həvəskar olmağı xoşlayırlar.

Bunu da deyək ki, keçirilən hər bir tədbir elə qurulmalıdır ki, onlar şagirdlərin yaradıcılıq qabiliyyətlərini çox artırsın, onlarda çalışmağa, oxumağa, öyrənməyə, işləməyə məhəbbət, motivasiya, böyük həvəs və stimul yaransın.

Sinifdənxaric və məktəbdənkənar tədbirlər şagirdlərin düşünmə qabiliyyətini, idrak müstəqilliyini yaradıcılıq istedad və qabiliyyətini daim və hər zaman xeyli dərəcədə artırmalıdır.

Məktəblərimizdən bu gün elə insanlar yetişdirmək lazımdır ki, o, hərtərəfli inkişaf etsin, yəni həm mənəvi və əxlaqi cəhətdən tam zəngin olsun, tamamilə əxlaqca saf və kamil olaraq fiziki cəhətdən cəsur, çevik və xüsusi kamilliyə çatmış olsun.

Adı hörmətlə çəkilən Dövlət Təhsil Strategiyasının, demək olar ki, bütün beş istiqamətli yönlərində səriştəyə əsaslanan bir hazırlıqlı müəllim obrazı, onun rəhbərlik və idarəçilik keyfiyyətlərinin təhsilin məzmununun, forma və metodlarının, sinifdənxaric, dərsdənkənar işlərin yeniləşdirilməsi, müəllimlərin peşə hazırlığı sisteminin daim, mütəmadi olaraq daha da təkmilləşdirilməsi və s. bu kimi məsələlərin həmişə diqqət mərkəzində saxlanmasını tələb olunur.

Sinifdənxaric tədbirlərin xeyli uğurlu nəticəsi olaraq istedadlı, bacarıqlı müəllim kadrlarının hazırlığından da əlbəttə, çox asılıdır ki, bu sahədə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik xidmətləri və böyük əməyi vardır.

Fərəhli haldır ki, Azərbaycan Respublikasının Prezidenti, möhtərəm cənab İlham Əliyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında xüsusi olaraq sərəncam da imzalamış və Universitetin pedaqoji kadrlar hazırlığındakı mühüm xidmətlərini təqdir etmiş və universiteti elm məbədi adlandırmışdır.

Müəllimlik sənəti şərəfli, çox dəyərli olmaqla, həm də bir çox sənət və peşələrin kompleks elementlərini də özündə birləşdirir. Bu mənada müəllimlik inteqrativ bir peşə sayılır (7, s. 101).

Demək, müəllimlik dedikdə, onun qnostik və öyrədici, kommunikasiya, konstruksiya, perseptivlik və digər yüksək təşkilatçılıq, tədqiqatçılıq qabiliyyətlərinə həmişə malik olması əsas şərtdir.

Müəllim həm bilik verir, həm tərbiyə edir, həm istiqamət verir, yol göstərir, o, istedadlı təşkilatçı və mahir peşəkar idarəedən olmalıdır.

Demək olar ki, pedaqoq peşəsi, ilk növbədə, onun yaxşı tərbiyəedicilik işini də, sinifdənxaric və məktəbdənkənar adlandırdığımız davamlı məşğələlərin təşkilini də, idarəedicilik, istiqamətvericilik qabiliyyətlərini də tələb edir.

Pedaqoq sənəti daim bunu da tələb edir ki, onun həmişə aydın, gözəl və səlis nitqi, danışığı olsun, gözəl natiqlik qabiliyyətinə sahib olsun.

Demək olar ki, natiqlik peşəsi bu peşədə də özünü xüsusilə parlaq şəkildə göstərməlidir.

Yaxud da müəllimlik peşəsi idarəçilik də, təşkilatçılıq da tələb edir ki, bu da o deməkdir ki, səriştəli, peşəkar müəllim idarəçilik qabiliyyətlərinə də mükəmməl yiyələnməlidir.

Bu barədə ölkəmizin müvafiq Təhsil Qanununda qarşımıza mühüm və möhtəşəm vəzifələr olaraq xüsusi tələblər qoyulmuşdur.

Sinifdənxaric işlərdə təhsil alanlar daha rahat və sərbəst olurlar, onların vaxt məhdudiyyəti də nisbi olur, keçirilən məşğələlər bir qədər daha əyləncəli olur, oyun elementlərindən, xüsusilə söhbət və dialoqlardan geniş istifadə edilir, fənnə dair çox maraqlı söhbətlər edilir, əlavə olaraq ədəbiyyatlardan, mənbələrdən tam genişliklə istifadə edilir.

Belə sinifdənxaric məşğələlərdə məktəblilər də dərslərdə çıxışlar etmək üçün müxtəlif məruzələr və hesabatlar hazırlayırlar, mövzu ilə əlaqədar olaraq əlavə kitablar və kitabçalardan, məlumat kitablarından bacarıqla və səmərəli istifadə etməyi öyrənirlər.

Daha başqa sinifdənxaric tədbirlər var ki, onlar məktəblilərin maraq və meylinə, istedad və qabiliyyətlərinə, bacarıqlarına uyğun olaraq təşkil edilir və onlar daha çox tərbiyələndirici, təhsilləndirici və təşkiledici, istiqamətverici səciyyə daşıyan, şagirdlərin elmi, bədii və mədəni dünyagörüşünü xeyli inkişaf etdirən sinifdənxaric tədbirlərdir.

Belə sinifdənxaric tədbirlərdə şagirdlər boş və ya asudə vaxt dediyimiz və boş vaxtlarında müxtəlif dərnək və klublara yazılır, boş vaxtlarında müstəqil və sərbəst fəaliyyət göstərmələri üçün daha könüllü olaraq yazıldıqları marağa və meylə görə yaradılmış xüsusi dərnək və xüsusi klublarda fəallıqla iştirak edirlər, fakültativ məşğələlərdə, muzey işlərində, idman bölmələri və yarışlarda, incəsənətin çox müxtəlif növlərinə, tiplərinə dair klublarda, peşələrə dair məşğələlərdə və digər maraq sahələrində daha çox fəallıqla iştirak edirlər (6, s. 45).

Kollektivlə birgə keçirilən sinifdənxaric işlərdə daha maraqlı məqamlar yaşanır. Vaxt məhdudiyyəti olmadığı üçün şagirdlər bir-biri ilə daha sıx ünsiyyətdə olaraq bir-birini daha yaxşı tanıyır, ümumi işi birgə görürlər, bir-birinə daim yardımçı olur və onların bu əməkdaşlıqları nəticəsində təhsildə və tərbiyə işlərində böyük uğurlar qazanılır.

Fənn dərnəklərində müxtəlif didaktik mövzularla əlaqədar olaraq müəllimlər ekskursiyalar təşkil edə bilir, şagirdlərlə birgə tarixi muzeylərə gedir, böyük şəxsiyyətlərin müxtəlif ev muzeylərində olur, Şəhidlər xiyabanını, tarixi abidələri, tarixi yerləri ziyarət edir, maraqlı gecələr təşkil edir, birgə kollektiv tamaşalara baxışlar keçirilər.

Məktəblilərin sinifdənxaric və məktəbdənkənar işlər zamanı hazırladıqları, düzəltdikləri əyani vəsaitlərdən, müxtəlif məqsədli cihazlardan müəllimlər dərs prosesində geniş istifadə edirlər.

Şagirdlərin dərs prosesində aldıqları biliklər sinifdənxaric məşğələlər zamanı möhkəmləndirilir və genişliklə tətbiq edilir.

"Bacarıqlı, istedadlı əllər" dediyimiz və belə ad altında sinifdənxaric dərnəklərdə şagirdlər, əsasən – qızlar tikmələr tikir, dərzilik edir, evdarlıq, kulinariya kimi vərdişlərə yiyələnirlər ki, bunlar da onların gələcəkdə istər səriştəli həyat yoldaşı, istərsə də qayğıkeş ana kimi həmişə gərəyi olacaqdır.

Bu cür dərnək və ya klublar həmişə peşəyönlü olub, sinifdənxaric məşğələlər zamanı daha çox həyata keçirilir, uşaqlara da müxtəlif təmayüllü peşələr, sənətlər barəsində dəyərli maraqlı məlumatlar verilir, davamlı olaraq peşə, sənət sahibləri ilə mütəmadi olaraq görüşlər təşkil edilir, müxtəlif əmək sahələrinə dair mütəmadi ekskursiyalar da təşkil edilir.

Dərs və sinifdənxaric işlərin qarşılıqlı əlaqəsinin ən bariz nümunəsi kimi respublikamızın məktəblərində müxtəlif fənlər üzrə olan olimpiadaların fəallıqla və həvəslə keçirilməsi artıq bir adət və ənənə şəklini almışdır. Bu olimpiadalarda da məktəblilər böyük həvəslə iştirak edir və öz bilik, bacarıq və qabiliyyətlərini fəallıqla nümayiş etdirirlər.

Sinifdənxaric və məktəbdənkənar tədbirlər bir-birilə daim sıx üzvi şəkildə əlaqədar olmaqla, xüsusilə şagirdlərin müstəqil, yaradıcı fəaliyyətlərini, maraq və meylini birgə nizamlayır və müntəzəm olaraq tənzimləyir.

**Problemin aktuallığı.** Tədris fəaliyyətində sinifdənxaric işlər və məktəbdənkənar tədbirlərin bu tərzdə əlaqələndirilməsi hər bir şagirdin fərdi qabiliyyətini, bacarıq və istedadını əhəmiyyətli dərəcədə inkişaf etdirir, yaradıcılıq potensialını artırır, elmi dünyagörüşü və fəal həyat mövqeyini məqsədyönlü şəkildə formalaşdırır.

**Problemin elmi yeniliyi.** Bu tədqiqat işində sinifdənxaric işlər və məktəbdənkənar tədbirlərin həyata keçirilməsinin nəzəri təhlili metodikası işlənmişdir.

**Problemin praktik əhəmiyyəti.** Sinifdənxaric işlər və məktəbdənkənar tədbirlərin həyata keçirilməsinin əhəmiyyətini və təşkili yollarını sistemli və ümumiləşmiş şəkildə dəyərləndirdiyindən, bu sahədə gələcək araşdırmalar üçün baza və ya köməkçi vasitə ola biləcək mənbə rolunda çıxış edir.

**Ədəbiyyat:**


1. Ağayev, Ə.Ə. Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi: Monoqrafiya. – -Bakı: Maarif, – 2005, – 340 s.
2. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı. "Dədə Qorqud dünyası". – Bakı: Öndər, – 2004, – s.72
3. Qasımova, L.N. Ümumtəhsil məktəblərində şagirdlərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi. Pedaqoji elmlər doktoru elmlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. – Bakı, – 2006

4. Qasımova, L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. – Bakı: Nurlan, – 2004, – 220 s.
5. Quliyev, S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. – Bakı: Maarif, – 1987, – 168 s.
6. Muxtarova, N.M. Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyə edilməsi: Monoqrafiya. – Bakı: BDU-nun nəşriyyatı, –1993, – 270 s.
7. Talıbov, Y. və b. Gənclərin mənəvi tərbiyə problemləri. – Bakı: Ünsiyyət, – 1988, – s.5

**E-mail:** menzileraqimova@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **R.L. Hüseynzadə,**
*ped.ü.fəls.dok.,dos*. **N.T. Hüseynova**
**Redaksiyaya daxil olub:** 08.04.2022